

■ Rafiq YUSİFOĞLU

## ETİRAF MƏKTUBU VƏ YA SEVGİ NAĞILI

Hər şeyim olsa da, günüm gün deyil,
Bunu yazmayaydım sənə heç gərək!
Unutmaq istədim, bu mümkün deyil,
Qəlbimi məhv etdi sonsuz keşkələr!

Əslində, xoşbəxtəm, yoxdu gileyim,
Saxlaya bilmişəm şah vüqarımı.
Qismət eləmədi ancaq taleyim
Mənim bu həyatdan umduqlarımı...

Bilmirəm hardaymış heç mənim ağlım? -
Könlüm istəyəni ala bilmədim.
Yarımçıq tükəndi sevgi nağılım,
Sevgi qəhrəmanı ola bilmədim...

Səni unutmağım çətindən çətin,
Sevdalı qəlbimdə çoxlu əzab var.
Dadı ayrı imiş ilk məhəbbətin,
Necə gözəl imiş şirin əzablar?!

Necə gözəl imiş titrəmək, əsmək,
Necə gözəl imiş çəkilən ahlar!
Baha başa gəldi mənə tələsmək,
Ancaq məndədimi bütün günahlar?!

Sənin də payın var bu ayrılıqda,
Vura bilməzdinmi quşu gözündən?!
İstəsən, özümü atardım oda, -
Çıxa bilərdimmi sənin sözündən?!

İstəsən mən sənə əsir gəlməzdim? -
Könül sazındakı simə bənd idim.
Məndən nə istəsən əsirgəməzdim,
Bircə işarəyə, himə bənd idim...

İçimdə bir dəli həsrət oyanır,
Şirin xəyallara uyuram hər gün.
Elə bil içimdə bir işıq yanır,
Sənin olduğumu duyuram hər gün...

Elə düşünmə ki, məndən uzaqsan,
Hey səni anıram ah çəkə-çəkə!
Sən mənim köksümdə yanan çıraqsan,
Qoymursan içimə qaranlıq çökə...

Yağsa qar, düşsə də sazaq yollara,
Nələrə qadirmiş sevgi, nələrə?!
Hər gün gözüm baxır uzaq yollara,
Yenə inanıram möcüzələrə!

Məhəbbət qalarmı qolları bağlı? -
Min çiçək bitibdir onun izində.
Yox, davam edəcək sevgi nağılı,
Neçə ki, sən varsan bu yer üzündə,
Neçə ki, mən varam bu yer üzündə...

## SƏN MƏNSİZ YAŞAYA BİLMƏZSƏN DAHA

Taleyim yar olub, səni tapmışam,
Yenə eşq yolunda batdıq günaha.
Ruhuna, qanına elə hopmuşam,
Sən mənsiz yaşaya bilməzsən daha...

Demə ki, xəstəyəm, məni sev, sağal!
Viranə bir qəlbi eşqin bəzədi...
Nə təkrar öpüş var, nə təkrar sığal,
Sevgi dünyasında hər şey təzədi...

Bir gizli sevdanın daddıq barını,
Nakamlıq qorxusu qəlbimi didir...
Onsuz da bilirəm, dodaqlarının
Dodağımdan ötrü ürəyi gedir...

Kül altında közəm, sanma sönmüşəm,
Bir həzin mehlə də nəfəs almışam.
Sənin damarında qana dönmüşəm,
Sənin ciyərində nəfəs olmuşam...

Gözəlsən, boynunu buranda belə
Zərif bənövşə tək çəni görürsən...
Ayna qabağında duranda belə
İçindən boylanan məni görürsən...

Hər adam duyarmı sən tək qadını?
Bələdsən istəyin qadir gücünə...
Bilirsən sevginin əsl dadını,
Daha söz-söhbət də deyil vecinə....

Sevdalı köksündə çaxır ildırım,
Qəlbində yer yoxdu fəğana, aha...
Araya düşsə də qarlı sıldırım,
Sən mənsiz yaşaya bilməzsən daha...

## XOŞUMA GƏLİR

Bəyaz bir çiçəyi sanki qar örtüb,
Nəyi arzulasam, başıma gəlir...
Məni düşünəndə həyadan pörtüb,
Sənin utanmağın xoşuma gəlir...

Zərif güllər kimi sən də sev günü! -
Onda bənövşələr düzə çıxacaq...
Nə qədər gizləsən mənə sevgini,
Bir gün qarı deşib üzə çıxacaq...

Daşlı-kəsəklidir eşqin yolları,
Alışıb yanarsan, odla oynama!
Bir gün dözməyəcək həsrət qolların,
Gəlib dolanacaq mənim boynuma...

Nəfəsin toxunsa könül tarıma,
İçimdə həsrətin puçurlayasaq.
Bir gün dodaqların dodaqlarıma
İllərin sirrini pıçıldayacaq...

Niyə üşüyürsən, yaxın gəl bir az,
Hava heç o qədər sazaq da deyil...
Cidanı çuvalda gizləmək olmaz,
Bilirəm, o "bir gün" uzaqda deyil...

Sevgi gülzarından çiçək dərmişəm,
Yaz ətri qatmısan soyuq qışıma...
Həyalı bir qıza könül vermişəm, -
Sənin utanmağın gəlir xoxuma!

## MEŞƏNİN QOYNUNDA TƏNHA BIR KOMA

Qovuşmaq çətindi arzuya, kama,
Qandal vurulubsa qollarımıza...
Meşənin qoynunda tənha bir koma
Həsrətlə göz dikib yollarımıza....

Ürəkdə ümidlər tumurcuqlayıb,
Sevgi böyüdükcə, dünya daralıb.
Kolların gözündə şeh muncuqlayıb,
Yolların gözünün kökü saralıb....

Qara buludları şimşəklər biçir,
Yuxudan diksinir sanki dərə, dağ.
O tənha komanın könlündən keçir
Üşüyən bir eşqin yuvası olmaq...

Qızınmaq istəyir eşqin oduna,
Bir gecikmiş sevgi hünərə həsrət...
Buxarı bir qalam quru oduna,
Divarlar bir isti hənirə həsrət...

Nə qədər qovrulaq günah içində?
Çıxmaq asandımı elin üzünə?
Divanə Məcnun tək biz ah içində,
Pənahmı aparaq çölün düzünə?

Bu koma üşüyür, ancaq elə bil
Meşələr alışır hər gün ahından...
O, bizi tək qardan yağışdan deyil,
Qorumaq istəyir el qınağından...

Bəs nə vaxt yetərik arzuya, kama?
Bəs nə vaxt güc gələr qollarımıza? -
...Meşənin qoynunda tənha bir koma
Həsrətlə göz dikib yollarımıza....

## BAŞIMIN ÜSTÜNDƏN UÇAN DURNALAR

Sevdalı sonalar uçub getsələr,
Mənim könül dünyam qalar xaraba.
İlğıma bənzəyər bu dəli sevda,
Gerçək sandıqlarım dönər səraba...

Baş aça bilmirəm özüm-özümdən,
Sanma ürəksizə mən ürək açdım?
Dağların başında duman süründü,
Qəlbimin başında qəm çiçək açdı!

Gözümün yaşından arın-arxayın
Pay verdim göylərin buludlarına...
Sarı xəzəllərə büküb sevgimi
Yüklədim küləyin qanadlarına...

Xəzan libasına büründü qəlbim,
Bu hicran hazırdı məni ütməyə...
Başımın üstündən uçan durnalar,
Getdilər qürbəti vətən etməyə...

İçimdə ağrılar diş şaqqıldadır,
Ovundurmaq olmur bir tənha qurdu...
Mən öz kədərimlə baş-başa qaldım,
Sevdalı qəlbimdə qəm yuva qurdu...

Axı öyrəşməyib bu sakitliyə,
Neyləsin dalğası perikən dəniz?
Demə mənim üçün təkcə qəm imiş
Hamıdan vəfalı, hamıdan əziz...

## SEVGİ QƏFİL GƏLƏN SELƏ BƏNZƏYİR

Bir zərif çiçəyin şehli gözündən,
Boylanan həsrəti görən mən oldum.
Bir gül ləçəyinin ilk nübarını
Titrək dodaqlarla dərən mən oldum.

Yolumuz ayrıldı ancaq nədənsə,
Gücümüz yetmədi xoşbəxt olmağa...
Niyə acizləşdi Fərhad külüngü,
Niyə yollarımız dirəndi dağa?!

Qorxduq ki, düşərik elin gözündən
Tikanlı sözlərdən ürək qanayır. -
İndi el içində hörmətimiz var,
Bizi insanlar yox, ürək qınayır...

Qalmışıq od ilə su arasında,
Özgə çəmənindən gül dərmək, günah!
Təmiz adımızı yaşatmaq üçün,
Təmiz bir eşqi də öldürmək, günah!

Niyə unutduq ki, sevdalı ürək,
Bəzən üsyan edir, haray qoparır?
Sevgi qəfil gələn selə bənzəyir,
Hər şeyi, hər şeyi yuyub aparır...

## ÜRƏYİN SAHİBİ

Başıma haranın külünü səpim?
Bəzən taleylə də barışmaq olmur!
Ürək dincəlsə də dərdi böləndə,
Sirri hər yetənə danışmaq olmur.

Bülbül həsrət qalıb yar gülzarına,
Dözmürəm qəlbimin ahü-zarına,
Ürəyim tutulub eşq azarına,
Çərəni heç kəsdən soruşmaq olmur...

Dolan gözlərimə buluddur, - demə,
Bu dəli həsrətə qan uddur, - demə,
Sevgini sevgiylə unutdur, - demə, -
Hər eşqin oduna alışmaq olmur.

Dərdimin dərmanı yarın üzüdü,
İçimi göynədən həsrət közüdü,
Ürəyin sahibi Tanrı özüdü,
Onun işlərinə qarışmaq olmur...

## YALNIZ SƏNİN ÜÇÜN YAZIRAM BUNU

Yalnız sənin üçün yazıram bunu,
Sən onu gizlicə oxumalısan...
Həsrət kəlmələri düzüb yan-yana,
Bir sevgi çələngi toxumalısan...

Yalnız sənin üçün yazıram bunu,
Söykə yanağıma yanaqlarını.
Titrəyə-titrəyə sən pərdəni çək,
Çəkmə dodağımdan dodaqlarını...

Yalnız sənin üçün yazıram bunu,
Açsın düymələri titrək əllərim...
Gözlərim qoynundan bənövşə dərsin,
Dönsün bəxtəvərə mənim güllərim...

Yalnız sənin üçün yazıram bunu,
Qəlbindən nə keçir utanma, istə!
Dönüb kəpənəyə həsrət dodaqlar,
Qonsun sinəndəki güllərin üstə...

Qoynunda qırılsın sevda yolları,
Bu sevgi dastanı düşsün dillərə.
Dönsün sarmaşığa titrək qolların,
Həsrətli gözlərin şehli güllərə!

Yalnız sənin üçün yazıram bunu,
Dağlasın köksünü bir odlu şimşək.
Sinəndəki günəşi yandırır məni,
Yorğan tək üstünə buludları çək!

Yalnız sənin üçün yazıram bunu,
Yol azıb dəryada tənha bir gəmi.
Müqəddəs bir yerdə lövbər salım mən,
Busə dalğaları döysün sinəmi!

Yalnız sənin üçün yazıram bunu,
Qoy sevda dumanı üstünə çöksün!
Bəsindi söyləmə acgöz arıya,
Gözləri doyunca qoy şirə çəksin!

Yalnız sənin üçün yazıram bunu,
Pıçıltın gətirsin məni həvəsə.
Çırpın qollarımın arasında sən,
Divanə bülbülü salaq qəfəsə...

Yalnız sənin üçün yazıram bunu,
Mən tək duya bilər söylə kim səni?
Gizli dünyamızda bəxtəvər olaq,
Olmasın xəbəri bundan kimsənin...

Hər gecə sinəmə sıxsam da səni,
Min dəfə öpsəm də bəs deməyəcəm...
Təpədən dırnağa mənim olanda
Ta səndən mən heç nə istəməyəcəm...